**Azərbaycan Xalq Parlamentinin**
**Seçki Komissiyası haqqında**
**Əsasnaməsi**

## I. Ümumi müddəalar

### Maddə 1. Hüquqi status

1.1. Azərbaycan Xalq Parlamentinin Seçki Komissiyası (bundan sonra – Seçki Komissiyası) Azərbaycan Xalq Parlamentinin (AzXP) Nizamnaməsinə və Reqlamentinə uyğun olaraq formalaşdırılan, daimi əsaslarla fəaliyyət göstərən, kollegial və müstəqil orqandır.

1.2. Seçki Komissiyası öz fəaliyyətində AzXP Nizamnaməsini, Reqlamentini, bu Əsasnaməni və Xalq Parlamentinin qərarlarını rəhbər tutur.

### Maddə 2. Fəaliyyət prinsipləri

2.1. Seçki Komissiyası aşağıdakı prinsiplər əsasında fəaliyyət göstərir:
– qanunilik və nizamnaməyə uyğunluq;
– müstəqillik və qərəzsizlik;
– kollegiallıq;
– şəffaflıq və aşkarlıq;
– seçki hüquqlarının bərabərliyi və gizli səsvermə.

## II. Seçki Komissiyasının formalaşdırılması və tərkibi

### Maddə 3. Tərkib və formalaşma qaydası

3.1. Seçki Komissiyası 7 (yeddi) nəfərdən ibarət tərkibdə formalaşdırılır və daimi əsaslarla fəaliyyət göstərir.

3.2. Seçki Komissiyası AzXP-nin təsis toplantısında gizli səsvermə yolu ilə seçilir.

3.3. Seçki Komissiyasının tərkibində sonrakı dəyişikliklər Xalq Parlamentinin qərarı ilə həyata keçirilir.

### Maddə 4. Vakant yerlər və tərkibin dəyişdirilməsi

4.1. Seçki Komissiyasında yaranan vakant yerlərə namizədlər Xalq Parlamentinin sessiyasında irəli sürülür və səsvermədə iştirak edən millət vəkillərinin yarıdan çoxunun səsi ilə seçilir.

4.2. Seçki Komissiyasının tərkibi Xalq Parlamentinin iclasında iştirak edən millət vəkillərinin sadə səs çoxluğu ilə buraxıla və ya dəyişdirilə bilər.

4.3. Boş qalan və ya boşalan yerlərə iki həftədən gec olmayaraq əlavə üzvlər seçilir.

## III. Seçki Komissiyasının səlahiyyətləri

### Maddə 5. Ümumi səlahiyyətlər

5.1. Seçki Komissiyası AzXP-yə millət vəkili seçkilərinin təşkili və keçirilməsi üzrə səlahiyyətli orqandır.

5.2. Seçki Komissiyası aşağıdakı funksiyaları həyata keçirir:
– seçkilərin keçirilməsi qaydalarını, tarixini və vaxtını müəyyən edir;
– millət vəkili olmaq istəyən şəxslərin müraciətlərinə baxır;
– namizədlər haqqında zəruri məlumatları toplayır və yoxlayır;
– qanuni əsaslar olduqda namizədləri qeydə alır, qeydə almaqdan imtina edir və ya qeydiyyatı ləğv edir;
– qeydiyyatdan keçmiş namizədlərin siyahısını internet resursları üzərindən elan edir;
– elektron səsvermə proqramını müəyyən edir və səsverməni təşkil edir;
– səsləri müstəqil şəkildə hesablayır;
– seçki nəticələrini rəsmiləşdirir və elan edir.

### Maddə 6. Birinci çağırış və növbəti seçkilər

6.1. AzXP-yə birinci çağırış seçkiləri təsisçilərin qərarı ilə elan edilir və Seçki Komissiyası tərəfindən təşkil olunur.

6.2. Növbəti çağırış üzrə seçkilər hər 3 (üç) ildən bir, millət vəkillərinin səlahiyyət müddətinin bitməsinə ən azı 90 (doxsan) gün qalmış elan edilir.

6.3. Növbəti çağırış üzrə seçkilərin tarixini və vaxtını Seçki Komissiyası müəyyən edir.

## IV. Millət vəkili namizədlərinə dair tələblər

### Maddə 7. Millət vəkili namizədi olmaq hüququ

7.1. Azərbaycan Xalq Parlamentinə millət vəkili seçkilərində 18 yaşına çatmış aşağıdakı şəxslər namizəd ola bilərlər:
7.1.1. Azərbaycan Respublikasının vətəndaşları;
7.1.2. Özləri və ya valideynlərindən ən azı biri əvvəllər Azərbaycan Respublikasının vətəndaşı olmuş şəxslər.
7.2. Namizədlər Azərbaycan Xalq Parlamentinin Nizamnaməsində təsbit edilmiş məqsəd və prinsipləri qəbul etməli və onlara sadiq olmalıdırlar.

### Maddə 8. Namizədliyə yol verilməyən hallar

8.1. Aşağıdakı şəxslər Azərbaycan Xalq Parlamentinə millət vəkili seçkilərində iştirak edə bilməz və Xalq Parlamentinin heç bir qurumunda təmsil oluna bilməzlər:
8.1.1. Barəsində milli, irqi, sosial və ya dini nifrət və düşmənçilik yayma, Azərbaycan Respublikasının ərazi bütövlüyü və suverenliyi əleyhinə fəaliyyət göstərmə, habelə

seçkilərin saxtalaşdırılması ilə bağlı ittihamları ilə qanuni qüvvəyə minmiş məhkəmə hökmü olan şəxslər;
8.1.2. Azərbaycan Xalq Parlamentinin Nizamnamə tələbləri əleyhinə fəaliyyət göstərən şəxslər.
8.2. Seçki Komissiyası bu maddədə göstərilən halların mövcudluğunu müəyyən etdikdə namizədin qeydiyyatından imtina edir və ya artıq qeydə alınmış namizədin qeydiyyatını ləğv edir.

## V. Namizədlərin irəli sürülməsi və qeydiyyatı

### Maddə 9. Namizədlərin müraciəti

9.1. Millət vəkili olmaq istəyən şəxslər namizədliklərini irəli sürmələri barədə Seçki Komissiyasının müəyyən etdiyi bildiriş forması ilə Seçki Komissiyaya müraciət edirlər.

9.2. Seçki Komissiyası müraciətləri müəyyən edilmiş müddətdə araşdırır və əsaslandırılmış qərar qəbul edir.

### Maddə 10. Qeydiyyat, imtina və ləğv

10.1. Qanuni maneələr olmadığı halda namizədlər Seçki Komissiyası tərəfindən qeydə alınır.

10.2. Qeydiyyatdan imtina və ya qeydiyyatın ləğvi əsaslandırılmış qərarla rəsmiləşdirilir və namizədə bildirilir.

## VI. Namizədlərin seçki kampaniyasının təşkili və keçirilməsi

### Maddə 11. Namizədin təbliğat kampaniyasının başlanması və müddəti

11.1. Seçki kompaniyasında iştirak namizədin qeydə alınması haqqında qərar elan edildiyi gündən başlayır və səsvermə günündən 48 saat əvvəl başa çatdırılır.

11.2. Seçki kampaniyası dövründə namizədlər seçicilərlə sərbəst ünsiyyət qurmaq, öz proqramlarını təqdim etmək, debatlar təşkil etmək və təbliğat materialları yaymaq hüququna malikdirlər.

### Maddə 12. Seçki təşviqatının prinsipləri

12.1. Seçki təşviqatı AzXP Nizamnaməsinə uyğun şəkildə azadlıq, bərabərlik və rəqabət prinsipləri əsasında həyata keçirilir.

12.2. Təşviqat prosesi dövründə namizədlərin bərabər imkanları təmin edilir, heç bir namizədə üstünlük verilə bilməz.

12.3. Seçki təşviqatı zamanı milli, irqi, dini və sosial nifrət yaymaq qadağandır.

### Maddə 13. İctimai debatlar

13.1. Seçki Komissiyası namizədlər arasında ən azı iki dəfə ictimai debat təşkil edir.

13.2. Debatların formatı və tarixi Seçki Komissiyası tərəfindən müəyyən edilir.

**Maddə 14. Məlumatdan istifadə və şəffaflıq**

14.1. Seçki Komissiyası namizədlərə eyni şərtlərlə ictimai məlumat kanallarından istifadə etmək imkanı yaradır.

14.2. Namizədlərin təqdim etdiyi məlumatlar ictimaiyyət üçün açıq olmalıdır.

**Maddə 15. Təşviqat resursları**

15.1. Seçki Komissiyası namizədlərə elektron kampaniya materiallarının yerləşdirilməsi üçün bərabər texniki şərait yaradır.

15.2. Kampaniyalar şəxsi və könüllü resurslar hesabına aparılır.

15.3. İanələr və maddi dəstək gizlədilə bilməz, mənbə açıq göstərilməlidir.

**Maddə 16. Seçki sükutu**

16.1. Səsvermədən 48 saat əvvəl seçki təşviqatı tamamilə dayandırılır.

16.2. Seçki sükutu dövründə hər hansı təbliğat, reklam, ictimai çağırış, sosial media kampaniyası qadağandır.

## VII. Səsvermənin təşkili və nəticələrin müəyyən edilməsi

**Maddə 17. Səsvermənin təşkili**

17.1. Səsvermə Seçki Komissiyasının qərarı ilə müəyyən edilən elektron səsvermə proqramı vasitəsilə, gizli səsvermə yolu ilə keçirilir.

17.2. Səsvermə prosesi bir həftə müddətində davam edir.

17.3. Hər bir seçici seçki bülletenində Seçki Komissiyası tərəfindən müəyyən edilmiş sayda namizədə səs vermək hüququna malikdir.

**Maddə 18. Seçki nəticələri**

18.1. Seçki bülletenində Seçki Komissiyası tərəfindən göstərilən sayda namizəd millət vəkili seçilmiş hesab edilir.

18.2. Seçki nəticələri Seçki Komissiyası tərəfindən səsvermə bitəndən dərhal sonra protokollaşdırılır və elan edilir.

## VIII. Parlamentin ilk iclası və mandat məsələləri

**Maddə 19. Parlamentin ilk iclasının çağırılması**

19.1. Seçki Komissiyası Xalq Parlamentinin ən azı 83 (səksən üç) millət vəkilinin səlahiyyətlərini təsdiq etdikdən sonra, həmin gündən başlayaraq iki həftədən gec olmayaraq Parlamentin növbəti çağırışın ilk iclasının vaxtını müəyyən edir.

**Maddə 20. Mandatdan imtina halları**

20.1. Millət vəkilinin mandatdan imtina etməsi barədə yazılı və ya şifahi bəyanatı Parlamentin iclasına sədrlik edən tərəfindən Seçki Komissiyasına göndərilir.

20.2. Seçki Komissiyası bu məlumatı qeydə alır və Parlament Aparatı ilə birlikdə rəsmi internet resurslarında və KİV-lərdə yayılmasını təmin edir.

## IX. Əlavə seçkilər və əvəzləmə

**Maddə 21. Boş qalan yerlər üzrə seçkilər**

21.1. Boş qalan yerlərə əlavə seçkilər Parlament fəaliyyətə başladığı gündən sonrakı 3 (üç) ay ərzində Seçki Komissiyası tərəfindən təyin edilir.

21.2. Əlavə seçkilər iki ay müddətində keçirilir.

**Maddə 22. Millət vəkilinin əvəz edilməsi**

22.1. Səlahiyyətinə xitam verilmiş millət vəkilinin yerinə, həmin səsvermə üzrə bülletendə növbəti ən çox səs toplamış namizəd millət vəkili statusu qazanır.

## X. Hesabatlılıq, qarşılıqlı fəaliyyət və seçki hüquqlarının pozulmasına görə məsuliyyət

**Maddə 23. Hesabatlılıq**

23.1. Seçki Komissiyası Xalq Parlamentinin ilk iclasına qədər təsisçilər qarşısında, Parlament formalaşdıqdan sonra isə Xalq Parlamenti qarşısında hesabatlıdır.

23.2. Seçki Komissiyası öz fəaliyyəti barədə Parlamentə yazılı və şifahi hesabat təqdim edir.

**Maddə 24. Parlamentin digər orqanları ilə qarşılıqlı fəaliyyət**

24.1. Seçki Komissiyası millət vəkilinin səlahiyyətlərinə xitam verilməsi ilə bağlı məsələlərdə Rəyasət Heyəti və İntizam Komissiyası ilə qarşılıqlı fəaliyyət göstərir və zəruri hallarda təqdimat verir.

**Maddə 25. Seçki hüquqlarının pozulmasına görə məsuliyyət**

25.1. Seçki hüquqlarının (aktiv və passiv) pozulması halları qadağandır.

25.2. Seçki hüquqlarını məhdudlaşdıran vəzifəli və ya texniki məsul şəxslər intizam məsuliyyəti daşıyır, onların səlahiyyətlərinə xitam verilə bilər və Xalq Parlamentində vəzifə tutmaq hüquqları məhdudlaşdırıla bilər.

25.3. Elektron seçki sisteminin səsvermə nəticələrinə təsir məqsədi ilə sındırılması, kiber müdaxilə cəhdi, çoxsaylı səsvermə yaratmaq üçün sistem boşluğundan istifadə edilməsi kimi hərəkətlər hüquq pozuntusu hesab olunur və həmin şəxslər seçkilərdən kənarlaşdırılır, barəsində hüquqi tədbirlər görülür.

25.4. Seçicinin iradəsinə təsir etmək, onu şantaj, təhdid, maddi təşviq və ya aldatma yolu ilə səsverməyə məcbur etməyə dair faktlar təsdiqləndikdə, həmin əməli edən şəxslər seçicilik və namizədlik hüququndan məhrum edilə bilər.

25.5. Yuxarıda qeyd edilən hüquq pozuntuları barədə şikayətlər Seçki Komissiyası, ehtiyac yarandıqda isə Parlamentin bu məqsədlə yaradılan Xüsusi Komissiyası tərəfindən dərhal araşdırılır, nəticələr ictimaiyyətə açıqlanır və pozuntuya yol verənlərə qarşı sanksiyalar tətbiq edilir.

## XI. Yekun müddəalar

### Maddə 26. Yekun qaydalar

26.1. Bu Əsasnaməyə dəyişikliklər və əlavələr Xalq Parlamentinin qərarı ilə edilir.

26.2. Bu Əsasnamə Xalq Parlamenti tərəfindən təsdiq edildiyi gündən qüvvəyə minir.